**“Qrant haqqında” Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

“Qrant haqqında” Azərbaycan Respublikasının Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının “Qrant haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

“Qrant haqqında” Azərbaycan Respublikası Qanununun və qrant haqqında müqavilədə (qərarda) göstərilən şərtlərin pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktlarının layihələrini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

öz səlahiyyətləri daxilində “Qrant haqqında” Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri həll etsin.

*2. Müəyyən edilsin ki:* [1]

*2.1. “Qrant haqqında” Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin 2-ci hissəsinin birinci cümləsində, 3-cü maddəsinin 2-1-ci və 2-2-ci (hər üç halda) hissələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;* [2]

*2.2. həmin Qanunun 2-ci maddəsinin 2-ci hissəsinin ikinci cümləsində və 5-1-ci hissəsində, 3-cü maddəsinin 2-ci hissəsinin ikinci abzasında və 4-cü maddəsinin 4-2-ci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;*

*2.2-1. həmin Qanunun 3-cü maddəsinin 2-2-ci hissəsində (ikinci və üçüncü hallarda) “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;* [3]

*2.3. həmin Qanunun 4-cü maddəsinin 4-cü hissəsinin birinci və ikinci cümlələrində və 5-ci hissəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini kommersiya qurumlarına və publik hüquqi şəxslərə münasibətdə Azərbaycan Respublikasının İqtisadiyyat ~~və Sənaye~~ Nazirliyi, dini qurumlara münasibətdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, digər qeyri-kommersiya qurumlarına və fiziki şəxslərə münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir;* [4]

*2.4. həmin Qanunun 2-ci maddəsinin 5-ci hissəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi həyata keçirir;*

*2.4-1. həmin Qanunun 3-cü maddəsinin 2-2-ci hissəsində (birinci halda) “orqan (qurum)” dedikdə mərkəzi icra hakimiyyəti orqanları və dövlətə məxsus hüquqi şəxslər nəzərdə tutulur;*

*2.5. həmin Qanunun 3-cü maddəsinin 2-ci hissəsinin üçüncü abzasında “müvafiq icra hakimiyyəti orqanları” dedikdə, mərkəzi və digər icra hakimiyyəti orqanları nəzərdə tutulur;*

*2.6. həmin Qanunun 4-cü maddəsinin 4-3-cü hissəsində “müvafiq icra hakimiyyəti orqanının elektron məlumat sistemi” dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin “Fərdi elektron pəncərə” elektron məlumat sistemi nəzərdə tutulur.* [5]

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 13 iyun 1998-ci il
720

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 27 sentyabr 2003-cü il tarixli **927** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, 9, maddə 478**)

2. 24 iyul 2014-cü il tarixli **241** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti, 26 iyul 2014-cü il, 159; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 07, maddə 823**)

3. 21 oktyabr 2015-ci il tarixli **653** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti, 22 oktyabr 2015-ci il, 230 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 10, maddə 1125**)

4. 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Respublika” qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** )

5. 9 mart 2017-ci il tarixli **1290** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti, 12 mart 2017-ci il, 55 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 3, maddə 368** )

6. 10 avqust 2020-ci il tarixli **1128** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti, 11 avqust 2020-ci il, 156, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-cü il, 8, maddə 1031**)

7. 21 yanvar 2023-cü il tarixli **1986** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 21 yanvar 2023-cü il, “Azərbaycan” qəzeti, 22 yanvar 2023-cü il, 14, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, 1, maddə 74**)

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

-

---

[1] 27 sentyabr 2003-cü il tarixli **927** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, 9, maddə 478**) ilə 2-ci bəndindən "**4-cü maddəsinin 4-cü və 5-ci bəndlərində** " sözləri çıxarılmışdır.

24 iyul 2014-cü il tarixli **241** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 26 iyul 2014-cü il, 159; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 07, maddə 823**) ilə 2-ci hissə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~2. Müəyyən edilsin ki, "Qrant haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin 2-ci bəndində, 3-cü maddəsinin 2-ci bəndində nəzərdə tutulan "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.~~

21 oktyabr 2015-ci il tarixli **653** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 22 oktyabr 2015-ci il, 230 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 10, maddə 1125**) ilə 2-ci hissə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~2. Müəyyən edilsin ki:~~

~~2.1. "Qrant haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin 2-ci hissəsində və 3-cü maddəsinin 2-ci hissəsinin birinci bəndində nəzərdə tutulan müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;~~

~~2.2. həmin Qanunun 4-cü maddəsinin 4-cü hissəsinin birinci və ikinci cümlələrində və 5-ci hissəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini kommersiya qurumlarına münasibətdə Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi, dini qurumlara münasibətdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, digər qeyri-kommersiya qurumlarına və fiziki şəxslərə münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir.~~

[2] 21 yanvar 2023-cü il tarixli **1986** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 21 yanvar 2023-cü il, "Azərbaycan" qəzeti, 22 yanvar 2023-cü il, 14, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, 1, maddə 74**) ilə 2.1-ci bənddə "**və 3-cü maddəsinin 2-1-ci hissəsində** " sözləri "**, 3-cü maddəsinin 2-1-ci və 2-2-ci (hər üç halda) hissələrində**" sözləri ilə əvəz edilmişdir.

[3] 21 yanvar 2023-cü il tarixli **1986** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 21 yanvar 2023-cü il, "Azərbaycan" qəzeti, 22 yanvar 2023-cü il, 14, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, 1, maddə 74**) ilə yeni məzmunda 2.2-1-ci və 2.4-1-ci bəndlər əlavə edilmişdir.

[4] 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** ) ilə 2.3-cü bənddən "**və Sənaye**" sözləri çıxarılmışdır.

9 mart 2017-ci il tarixli **1290** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 12 mart 2017-ci il, 55, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 3, maddə 368** ) ilə 2.3-cü bəndinə "**kommersiya qurumlarına**" sözlərindən sonra "**və publik hüquqi şəxslərə**" sözləri əlavə edilmişdir.

[5] 10 avqust 2020-ci il tarixli **1128** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 11 avqust 2020-ci il, 156, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-cü il, 8, maddə 1031**) ilə 2.5-ci bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 2.6-cı bənd əlavə edilmişdir.